**UOT: 0000-0002-9237-3626**
**https://doi.org/10.59849/2311-8482.2025.1.42**

**RAHİLƏ MƏMMƏDOVA***

# AZƏRBAYCAN XALQININ YARATDIĞI ŞİFAHİ XALQ ƏDƏBİYYATI

*Folklor nümunələri vasitəsilə xalq gündəlik həyatı, gələcək ideyaları ilə əlaqədar arzu və istəklərini ifadə etmişdir və buna görə də xalq bədii yaradıcılıq nümunələri vasitəsi ilə xalqın yaşam tərzi, eyni zamanda onun psixologiyasını öyrənmək olur. Xalq psixologiyasını öyrənmək baxımından folklorşünaslıqda bəzi əhəmiyyətli nəzəriyyələr meydana gəlmişdir. Mifoloji nəzəriyə bu nəzəriyyələrdən biridir. Mifoloji məktəbin nümayəndələri dini bədii yaradıcılığa təkan verən bir qüvvə kimi göstərirdilər, onların fikrincə folklor ağacdakı yarpaq kimi insan iradəsindən asılı olmayaraq, inkişaf edir, insan isə folkloru icad və mühafizə edəndir.*

*Antropoloji nəzəriyyənin alimləri isə belə bir qənaətə gəlmişlər ki, dünya xalqlarının folklor nümunələri arasında oxşarlıq vardır və bu oxşarlıq qədim xalqların psixi, mənəvi, ruhi eyniliyi ilə əlaqədardır. Burdan belə qənaətə gəlmək olar ki, folklor nümunələrindəki oxşarlıq əsasında insan psixologiyasını, fərqli cəhətləri ilə xalqın özünəməxsus fərdi psixoloji xüsusiyyətlərini öyrənmək mümkündür.*

***Açar sözlər:*** *folklor, xalq psixologiyası, nəzəriyyə, mədəniyyət, əfsanə, xalq oyunu*

## Giriş

Xalqın psixologiyasını öyrənmək baxımından ən dəyərli vasitə folklor nümunələridir. Folk (ingiliscə xalq, loqe isə bilik, hikmət mənasındadır) hərfi mənada xalq hikməti deməkdir. Xalq öz bədii yaradıcılıq nümunələrində gündəlik həyatı ilə bağlı, gələcək ideyaları ilə əlaqədar arzu və istəklərini ifadə etmişdir. Buna görə də xalq psixologiyasını şifahi xalq ədəbiyyatı ilə əlaqədə də öyrənmək lazımdır.

Xalq kütlələrinin həyatında elə bir mühüm əhəmiyyətli hadisə olmayıb ki, o, xalq yaradıcılığında öz bədii inikasını tapmamış olsun. Bu nöqteyi-nəzərdən xalq yaradıcılığı kütlələri xalq psixologiyasını öyrənmək üçün zəruri material verir.

## Əsas məzmun

Azərbaycan xalqının yaratdığı qədim nağıllarda, əfsanələrdə xalqımızın o zamankı həyat və məişət tərzi, adət və ənənələri, dünyagörüşü öyrənilir.

Xalq yaradıcılığı nümunələri Azərbaycan xalqının mənəvi zənginliyini göstərir, onu yaradıcı xalq kimi xarakterizə edir. Xalq mahnıları, bayatılar, laylalar və s. axıcı ahənglə ifa edirlər.

Hər bir nağılı söyləyən ifaçı, dastanı söyləyən aşıq aktyor kimi çıxış edir, müxtəlif mimikalardan istifadə edir və özünü nağıl, dastan qəhrəmanlarının iztirablarına, ruhi hallarına, sevinc və kədərinə uyğunlaşdırır.

Xalq psixologiyasını öyrənmək baxımından folklorşünaslıqda meydana gələn bəzi nəzəriyyələr də əhəmiyyətlidir. XIX əsrdə xalq yaradıcılığının meydana gəlməsi haqqında müxtəlif fikirlər, rəylər yaranmağa başlayır. Bu nəzəriyyələrdən biri mifoloji nəzəriyə adı ilə məşhurlaşmışdır. Onlar dini bədii yaradıcılığa təkan verən bir qüvvə kimi göstərilirdi. Mifoloji məktəbin nümayəndələrinə görə, folklor ağacdakı yarpaq kimi insan iradəsindən asılı olmayaraq, inkişaf edir, insan isə folkloru icad və mühafizə edəndir[4].

Dövrün mədəniyyətini öyrənmək yolu ilə insan psixologiyasını tədqiq edən antropoloji nəzəriyyə də çox maraq doğurur. Antropo – insan, logiya –elm deməkdir.Antropoloji nəzəriyyənin ilk müddəalarını ingilis alimi Teylor və şotland alimi Lenq şərh eləmişlər. Bu alimlər ibtidai icma dövrünün mədəniyyətini öyrənməklə məşğul olmuşlar. Belə bir qənaətə gəlmişlər ki, dünya xalqlarının folklor nümunələri arasında oxşarlıq vardır. Bu oxşarlıq qədim xalqların psixi, mənəvi, ruhi eyniliyi ilə əlaqədardır. Dünyada elə xalqlar var ki, bunlar arasında nə ərazi yaxınlığı, nə də dil qohumluğu olmuşdur. Bunun səbəbi ondan ibarətdir ki, dünya xalqları eyni mənəvi, psixi mənbəyə malikdir, bu oxşar mənbə onların şifahi ədəbiyyatının da oxşarlığını şərtləndirmişdir[4].

Deməli, folklor xalqın ta qədimdən başlayaraq ümumdünya mədəniyyətinin yaradılmasında iştirakını göstərən vasitədir. Bununla bağlı maraqlı bir məsələ ortaya cıxır ki, deməli, folklor nümunələrindəki oxşarlıq əsasında insan psixologiyasını, fərqli cəhətləri ilə xalqın özünəməxsus fərdi psixoloji xüsusiyyətlərini öyrənmək mümkündür. Xalq yaradıcılığının ən qədim janrlarından biri əmək nəğmələri olmuşdur. Əməyi ritmləşdirmək və yüngülləşdirməkdən ibarət olan əmək nəğmələri ilkin əmək dövrünü əks etdirməklə yanaşı, xalqın psixoloji biliyini də ortaya çıxır. Xalq musiqidən, nəğmədən psixoloji təsir vasitəsi kimi də istifadə etmişdir. Sayacı sözlərində də bu aydın görünür.

Nənəm a şişək qoyun,
Yunu bir döşək, qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

Qədim insanların psixoloji xüsusiyyətlərini öyrənmək baxımından mərasim nəğmələri də böyük əhəmiyyət kəsb edir. Mərasimlərdən ən çox yayılanı Yeni il – Novruz mərasimidir. O, insanlara sevinc verən, onları yeni ilə ruhlandıran ən maraqlı mərasimlərdən biridir. İnsanlar yeni ilə tamamilə təmiz, yeni ovqatla daxil olmaq istəyirlər. Küsülülər barışır, yoxsullara, xəstələrə, kimsəsizlərə Novruz payı göndərilir. Gələcək bədbəxtlikləri dəf etmək üçün böyük tonqal qalayıb üzərindən yeddi dəfə atıldıqdan sonra xonçaların dövrəsinə oturaraq belə oxuyurdular.

Taxçaya qoydum çırağı,
Rövşən eyləsin budağı,
İşıqlandırsın otağı,
Çünki yetişib firuz,
Xoş gələcəkdir Novruz.

Qədim məişət mərasimlərindən biri vəsfi-haldır. “Vəsfi-hal” halın vəsfi, vəziyyətin izahı deməkdir ki, baxışını, etiqadını izah etmək baxımından əhəmiyyətlidir. Bu mərasimdə əsasən qadınların iştirak etməsi onların fala daha çox meyl etməsini göstərir. Çərşənbə axşamı qadınlar, qızlar niyyət edib, talelərini yoxlayırlar.

Yas və dəfn mərasimləri də xalqın psixoloji xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyətlidir. Bu mərasimlər adam vəfat etdikdə keçirilir. Bu zaman oxunan mahnılar ağı adlanır. Ağılar insan itkisindən doğan acı kədəri, həsrəti ifadə edir. Yas mərasimi haqqında Ə. Haqverdiyev “Azərbaycanda teatr” adlı məqaləsində çox maraqlı qeyd var. O yazır: “Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayardılar. Bu toplantıya “yuğ” deyirdilər (yuğlamaq-ağlamaq sözündəndir). Toplananlar üçün qonaqlıq düzələrdi, yuğçular ikisimli qopuz çalıb oynayardılar. Yuğçu əvvəlcə mərhum qəhrəmanın igidliyindən danışıb onu tərifləyirdi. Sonra isə qəmli havaya keçib şanlı qəhrəman üçün ağı deyərdi. Toplananlar da hönkür-hönkür ağlayardı”[5].

Beləliklə aydın olur ki, xalqın soy kökündə qəhrəmanlıq həmişə təriflənib. Hazırda xalqın yas mərasimində deyilən ağılar təkcə qəhrəmanlar üçün deyil, bütün ölülər üçün oxunduğuna görə sayca çox, məzmunca rəngarəngdir.

Mərasimlərdən ən çox yayılan toy mərasimləridir. Xalqın psixologiyasını öyrənmək baxımından toy mərasimləri də çox əhəmiyyətlidir. Xalq bu mərasimi dəbdəbəli, şux keçirməyə çalışır və bunun üçün hər cür vasitələrə əl atır. Toy mərasimləri başdan ayağa mahnılarla müşayiət olunur. Mahnılar həm də musiqi, rəqs və oyunlarla müşayiət olunur.

Toy mərasiminin bir sıra mərhələləri vardır: elçilik, nişanlanma, xına gecəsi, gəlin gəlmə, toyun dağılması, duvaq alma və s. Hər bir mərhələnin özünə görə mahnıları olmuşdur ki, bunlar bilavasitə həmin mərhələnin əsas xüsusiyyətlərini özündə toplamışdır. Məsələn, elçilik və ya nişanlanma zamanı ifa edilən mahnı:

Quda, gəlmişik sizə,
Hörmət ediniz bizə.
Bu gecə qız sizdədir,
Sabah aparırıq bizə.

Qız evinin razılığı alınandan sonra qızı oğlan evinə aparırlar. Bu mərhələdə oxunan mahnı:

Kəfkiri düz qoy, quda,
Aşını süz qoy, quda.
Biz ki qızı apardıq.
Ürəyinə buz qoy, quda.

Gəlin oğlan evinə gətirilərkən də müxtlif mahnılar oxunur:

Anam-bacım qız gəlin!
Əl-ayağı düz gəlin!
Yeddi oğul istərəm,
Bircə dənə qızgəlin!

Bu mahnıda xalqın özünə məxsus psixoloji xüsusiyyətləri öz əksini tapıb. Dədə-babadan Azərbaycan xalqı oğlan uşağını nəsil davamçısı hesab etdiyinə görə çox sevib, həm də oğula xalqın

xilaskarı kimi baxıb və "düşmən çəpəri" adlandırıb.

Toy mərasiminin ən maraqlı səhnələrindən biri bəyi və gəlini tərif etməkdir. Burada bəyə və gəlinə xalq öz arzularını ifadə edir.

Ətəyi çin-çin gəlin!
Çiyni göyərçin gəlin!
Gəlinlər arasında
Hamıdan göyçək gəlin
Və yaxud
Yetişdi toy axşamı,
Durun yandırın şamı,
Gəlinə bəək vurun,
Gəlir oğlan adamı.

Gəlin-qayınana haqqında olan məzəli mahnılar toy mərasiminin ən maraqlı nümunələrindən hesab edilməklə yanaşı, gəlin-qayınana arasındakı ziddiyyət, çəkişmə, narazılıqların olmasını da əks etdirir. Bu, qayınanaların dediyi mahnıda aydın görünür:

Gəlin gəlir, xan gəlir,
Evləri yıxan gəlir.
Əlində ülgüc-tiyə,
Başları qırxan gəlir.

Hətta nəvəsini oxşayanda da qayınana gəlinə olan "məhəbbətini" gizlədə bilmir:

Sarımsağım, soğanım,
Yad qızından doğanım,
Yarısı ilan balası,
Yarısı canım parçası.

Ayrı-ayrı dövürlərdəadət-ənənələrdə, psixologiyada nisbətən dəyişiklik yaranmışdır ki,bu da mərasim mahnılarında öz əksini tapıb. Vaxt olub ki, qızın rəyi soruşulmadan onu ərə veriblər. Ancaq vaxt da olub ki, qızın istəyi olmadan onu köçürməyiblər.

Yük üstündə cücü var,
Cücünün, qırx ucu var,
Qızın meyli olmasa
Oğlanın nə gücü var?!

Mərasimlərlə əlaqədar meydan tamaşalarında xalqın psixoloji xüsusiyyətləri qabarıq əks olunub. Məzhəkə, gülüş, ailədə, məişətdə olan nöqsanların tənqidi, qoluzorluluların azğınlığına qarşı etiraz bu tamaşaların məzmununu təşkil edir.

"Tənbəl qardaş", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" səhnəciklərində xalqın əməyə, zəhmətə verdiyi qiymət, tənbəllərə qarşı nifrət hissi ifadə olunur. "Tənbəl qardaş" hekayəsində xalq psixologiyasına xas olan bir xüsusiyyət də nəzərə çarpır. Belə ki, çalışqan qardaş tənbəl qardaşı məzəmmət edir və deyir ki, duz-çörəyə and içməsə, ona inana bilməyəcək. Tənbəl qardaş duz-çörəyə and içir ki, bundan sonra tənbəllik etməyəcək və onların təsərrüfatlarında özünü çalışqan göstərəcəkdir. Bu tənbeh və andan sonra onu təsərrüfata şərik ediblər. Beləliklə, aydın olur ki, Azərbaycan xalqı lap qədimlərdən duz-çörəyə böyük hörmət və məhəbbət bəsləyib. Bu xalqın psixologiyasında bu gün də qalıb. Uşaqdan- böyüyə yerə düşən çörəyi öpüb göz üstə qoyurlar, "çörək haqqı" deyib ona and içirlər. And içşəyə inam da tarixən xalq psixologiyasına xas olan xüsusiyyətdir.

"Kəndirbazlıq" xalq oyununda başqa psixoloji xüsusiyyətlə tanış oluruq. Kəndirbaz kəndirin üstündə çox təhlükəli hərəkətlər edir, tullanır, uzanır, mis qabın içərisində oturaraq kədirdə yeriyir, ayağına bir neçə iti xəncər bağlayıb kəndirin üstündə gəzinir və s. Kəndirbazın keçəpapaq adlı köməkçisi isə ustadının hərəkətini gülməli bir şəkildə təqlid edir və bununla da bəd gözləri kəndirbazdan uzaqlaşdırır. Deməli, Azərbaycan xalqının insan baxışlarından yayılan şüaların həm xoş, həm də bəd olmasına inamı olub, xalq "bəd nəzəri" adlanan baxışları müxtəlif vasitələrlə özündən uzaqlaşdırmağa çalışıb.

Azərbaycan xalqının hikməti, zəkası atalar sözü və məsələlərdə öz əksini tapıb. Atalar sözü və məsəllərdə xalqın təfəkkürü əsərlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir.

Atalar sözü xalqın mübarizəsi, əməyi, düşüncələri, təcrübə və sınaqları, dünyaya baxışı, həyata münasibətləri haqqında dərin və geniş mənalar ifadə edən janrdır. Bəzən bunların arxasında xalqın təfəkkürü, adət-ənənələri ilə bağlı olan böyük bir hadisə gizlənir. Bəzi atalar sözlərini oxuyanda

qarşımızda böyük dövr açılır, onun vasitəsilə həmin dövrdə xalqın vəziyyəti, insanların hər şeyə münasibətilə tanış oluruq.

Görkəmli filoloq, folklorşünas H. Qasımlının fikirləri xalq psixologiyasını öyrənmək baxımından çox əhəmiyyətlidir. "Hər bir azərbaycanlı şirin, bədii eyhamla, məzəli, bəzən üstüörtülü və ikimənalı, işarə və ibarə ilə danışmağı çox xoşlayır, buna bir növ adət etmişdir. Lakin hər bir azərbaycanlı həm də açıq və geniş ixtişarşax danışmağı xoşlayır. Öyüd-nəsihət, ibrətamiz kəlam, aforizimlər azərbaycanlıların dilindən-ağzından əskik olmur, qulağını yormur. Əksərriyyəti hazırcavabdır, söz altında qalan deyildir. Atalar sözü bu xüsusiyyətləri daşımaqda azərbaycanlıların köməyinə gəlir, dillərində əvəzsiz bir vasitəyə çevrilir, bəlkə də elə buna görə çox zəngin bir sərvətə çevilmiş, geniş ixtişar tapmış, kütləvi şəkil almışdır".

Atalar sözü və məsəllərdə xalqın dinə münasibəti də aydın olur. Məsələn: "Allah əli hər şeydən ucadır", "Allah kərimdir", "Kor leylyin yuvasını Allah tikər", "Sən saydığını say, gör fələk nə sayır" və s. Atalar sözü və məsəllərdə xalqın həm də əməyə, doğma Vətənə münasibəti ifadə olunur. Məs: "İşləməyən dişləməz", "Hər kəsə öz vətəni şirindir".

Atalar sözlərində dostluq, mehribanlıq kimi gözəl kefiyyətlər də təbliğ olunur. Qəhrəmanlıq, igidlik tərif edilir. Xalq bütün övladlarını bu ənənələrlə tərbiyələndirməyə çalışır: "Tikə ilə dost olan, aylarla küsülü olar", "Dil var bal gətirər, dil var bəla", "Dost dar gündə tanınar", "At ölür, meyidi qalır, igid ölür, ad-san qalır". "İgid ölər, adı qalar, müxənnətin nəyi qalar?"

Atalar sözünün çoxu həyatı təcrübəyə əsaslanan əxlaqi-tərbiyəvi nümunələrdir. Bunlar əsrlər boyu pis, yaxşı nəticələr görülərkən çıxarılan nəticələrdir. Atalar sözlərində nadanlıq, paxıllıq, xəyanət, ikiüzlülük, qorxaqlıq pislənir, elmə, sənətə, anaya məhəbbət, humanizm kimi gözəl keyfiyyətlər təbliğ edilir. "Elm ağlın çırağıdır", "Savadsız adam kor kimidir", "Sənət insanın xəzinəsidir", "Bir ağıllı baş saxlar", "Ustadına kəs baxanın gözlərinə qan damar", "Yüz ölç, bir biç", "Anlayana qul ol, anlamayana ağa olma".

Atalar sözləri və məsəllər xalqın psixoloji biliyini öyrənmək baxımından da əhəmiyyətlidir.

İnsanın tərbiyyəsində mühitin rolu haqqında: "Yoldaşını göstər mənə, sənin kim olduğunu deyim", "Atı atın yanına bağlarlar, həmrəng olmasa, həmxasiyyət olar", "Yaxşı yoldaş adamı bay edər, pisyoldaş zay" və s.

Xalq hikmətinin ifadəsini xalq ədəbiyyatının geniş yayılmış janrlarından bir olan tapmacalarda daha aydın görürük. Tapmaca bu və ya digər əşya, hadisə, məfhum haqqında yaranır. Həmin əşya və hadisənn bir əlamətinin, bir keyfiyyətini dolayı yolla söylənilir, başqa cəhəti gizli saxlanılır. Tapmacalarda fikirin mənası üstüörtülüdür. Həm də fikirdən daha çox təsvir, təəssürat, xəyal, fantaziya vardır. Tapmacalarda xalqın ayrı-ayrı əşya və hadisələr haqqında fikirləri, təcrübə və sınaqları, müşahidələri ifadə olunur. Xalq öz elmini, biliyini, təcrübəsini, düşünmək tapmaq qabiliyyətini yoxlamaq üçün vasitəçi olmuşdur.

Təsadüfi deyildir ki, məclislərdə, yığıncaqlarda tapmacaları qocalar deyər, cavanlar isə fikirləşərdilər. Heç kəs onu tapa bilmədikdə, onlar özləri açar, izah edər, öyrənərdilər.

Xalq elmə, biliyə böyük əhəmiyyət vermişdir. Keçmişdə evlənən cavanların, həyat, ailə, təsərrüfat və s. haqqında təcrübə və bilikləri bu yol ilə yoxlanılırmış. Nizaminin əsərlərində, "Dədə Qorqud" boylarında da qızlar seçdikləri oğlanı bu yolla yoxlayırlar.

Tapmacalarda xalq uşaqların zehni, düşüncə və təfəkkürünün inkişafı üçün ən böyük təsir vasitəsi kimi istifadə etmişdir.

Tapmacalar düşünmə, axtarıb tapma qabiliyyətini inkişaf etdirir, uşaqlara ətraf aləmdə baş verən müxtəlif hadisələri, müxtəlif cisimlər haqqında ilk elmi təsəvvürlər verir. Uşaqlar tapmacalar vasitəsilə "Nə haradadır?", "Nə nədən düzəlir?", "Nə nəyə lazımdır?" kimi suallara cavab tapırlar. Xalq hikmətinin səbəbini də məhz burda axtarmaq lazımdır.

F.Köçərlinin sözləri ilə desək, millət həddən ziyadə məsəllər, hikmətamiz sözlər, tapmacalar icad ediblər ki, onların vasitəsilə öz biliyini, təcrübəsini, hikmətini ifadə edir:

Yatanda yumru yatar,
Altı daşdı, daş deyil,
Ətini dərman tək satar.
Üstü daşdır, daş deyil!
Hər kəs istəsə tutsun,
Heyvan kimi otlayır,
Tikanı əlinə batır.
(Kirpi) (Tısbağa)

Tapmacaların bir növü də tapmaca bağlamaqdır.

Zülfün üzü gümüşdür,
Zülfün ucu ilandır,
Sal boynuna ilişdir,
Sal boynuna dolandır,
Bar verən kölgə salmaz,
Bar verən kögə salmaz
Aşıq, necə yemişdir!
Aşıq, bu dombalandır.

“Böylə nümunələrin bəzən hamam müsabiqə meydanında bədahətən söyləndiyini nəzərə alsaq, ağız ədəbiyyatında sənət vəbacarığın nə qədər uca olduğuna heyran olmamaq olmaz” [7].

Xalqın təxəyyül xüsusiyyətlərini öyrənmək baxımından ən əhəmiyyətli folklor nümunələri nağıllar, rəvayətlər və əfsanələrdir.

“Əşya və təbiət hadisələrinin canlandırılması, insanlara məxsus xasiyyət və keyfiyyətlərin əşya və heyvanlar üzərinə köçürülməsi, cəmiyyətə, təbiətə çox adi görünən hadisələrin fantastik şəklə salınması, fövqəladə hadisələrlə qaynayıb qarışdırılması, gələcəyə nikbin münasibət, inam, xoşəhval-ruhiyyə, geniş epik lövhələrin, macəra və mürəkkəb hadisələrin bolluğu və s. nağıllara xas olan xüsusiyyətlərdir[6].

Nağıllar müxtəlif dövürlərdə xalqın dünyagörüşünü həyata münasibətini, gələcək haqqında arzularını, azadlıq, müstəqillik uğurunda mübarizəsini, onun öz qüvvəsinə, gələcəyə inamını bədii boyalarla əks etdirir.

Sehirli nağıllar ən qədim nağıllardır. Bu nağılların əxlaqi-tərbiyəvi əhəmiyyətindən başqa, bir də qədim insanların təfəkkürünün, fəlsəfəsinin izlərini özündə saxladığı üçün psixoloji əhəmiyyəti vardır. Bu nağıllar Azərbaycan xalqının fantaziyasını, bədii təfəkkürünü nümayiş etdirir. Bəzən bu nağıllarda əfsanəvi yerlər, zülmət dünyası, hətta o biri dünya təsvir edilir. Sehirli nağıllarda biz xalqın bəxt, tale, xoşbəxt həyat və s. dünyagörüşünü öyrənirik. Zaman-zaman xalqın sehirli nağıllardakı xəyalları gerçəkləşib. Danışan güzgü (televizor), üçan xalça (təyyarə) xalqın öncəgörüşünü əks etdirir.

Xalq tarixi şəxsiyyətlərə - hökmdar, padşah, məşhur sərkərdə, sənətkar, xalq qəhrəmanlarına münasibətini yaratdığı tarixi nağıllarda əks etdirmişdir. Tomris, Dara, İsgəndər, Şah Abbas və başqaları haqqında olan nağıllar buna nümunədir. Xalq nağıllarında xalqın gücü, ağlı və təcrübəsi zalım hökmdarlara qarşı qoyulmuşdur.

Xalqın həyatı, yaşayış tərzi, dünyabaxışı ən çox və aydın şəkildə məişət nağıllarında əks olunmuşdur.

Məişət nağıllarının əsas qəhrəmanları sadə xalqın içərisindən çıxan çoban, nökər, bağban və b. ibarət olur. Bu adamlar öz ağılı, gücü, zəkası, məharəti, yeri düşəndə hiylə və kələyi ilə qələbə çalırlar.

Məişət nağıllarının qəhrəmanlarının simasında xalqın arzu və istəkləri, onun təcrübə və müşahidələri, dünyabaxışı, gələcəyə inamı təsvir edilir. Ağıl, zəka, çeviklik, alicənablıq, xeyirxahlıq ön plana çəkilir [4].

Azərbaycan nağıllarında ibrətamiz qadın surətləri vardır. Nağıllarda təsvir edilən qadınlar qəhrəman, evdə, ailədə sədaqətli, vəfalə yoldaş, sirdaş, həm də gözəl, insanları valeh edən bir varlıq kimi təsvir edilir.

Nağıllarda müdrik qocalar və qarılar təsvir edilir ki, burada xalqın ağsaqqal və ağbirçəklərə münasibəti öz əksini tapıb.

Şifahi xalq ədəbiyyatının digər janrlarda da – bayatı, dastan, layla, aşıq yaradıcılığında və s. də xalq psixologiyasına dair maraqlı cəhədlər çoxdur. Təkcə laylaların uşaq psixologiyasına gösdərdiyi müsbət təsir barədə qeyd etmək kifayətdir.

Xalqın əsrlər boyu yaratdığı bu nümunələri mədəniyyət tariximizdə folklorşünas kimi tanınan A. Şaiq böyük mənəvi sərvət, xəzinə adlandırmışdır. A. Şaiqə görə, el ədəbiyyatımız o qədər vüsətlidir ki, onu yazmaqla qurtaracaq şeylərdən deyil. Onun aşıq yaradıcılığı haqqında dediyi fikirlər də əhəmiyyətlidir. “Qoltuğundakı üçtelli sazı ilə köy-köy dolaşaraq xalqın həyata və gözəlliyə olan ruhi təlatümlərinin təmininə çalışan bu sərbəst fikirli, incə duyğulu, saf və təmiz ruhlu şairlər xalqa nələr vermişdir?... Xalq həm pedaqoq, həm filosof, həm şair, həm alim, həm də psixoloqdur. Ona görə də folklorun insanın həyatına baxışını öyrənmək işində elmi-tarixi əhəmiyyəti ölçülməzdir. Folklor onu yaradan xalqın həyatı, mübarizəsi tarixi ilə bağlı olaraq yaranmışdır. Bunun nəticəsində xalq psixologiyasının bütün xüsusiyyətləri özünəməxsus şəkildə folklorda ifadə edilmişdir. Xalqın

qan yaddaşını, soy-kökünü, milli xüsusiyyətlərini inkişaf etdirmək baxımından folklorun tarixi əhəmiyyəti bu gün də qeyd edilməlidir. Qədim insanların mübarizələri, yaxşı və pis, çətin və xoşbəxt günləri haqqında folklorda olan maraqlı fikirlər, məlumatlar vasitəsilə xalqa nümayiş etdirilməlidir. Bu nümunələrdə babalarımızın qəhrəmanlığı, xarici işğalçılara qarşı mübarizəsi əks olunmuşdur. Bütün bunların isə hazırkı dövrdə gənc nəslin qəhrəmanlıq, vətənpərvərlik, istismar dünyasına nifrət, onların milli ruhda tərbiyə edilməsində mühüm əhəmiyyəti vardır.

Şifahi xalq ədəbiyyatı nəinki xalq psixologiyasını öyrənmək baxımından, həm ideya-məfkurəvi, əxlaqi, həm də bədii estetik tərbiyə işində mühüm rol oynayır. Eyni zamanda gənc nəslin estetik zövqünün yüksəlməsinə böyük təsir göstərir.

## ƏDƏBİYYAT

1. Cəfər C. Estetik tərbiyə, ailə və məktəb. Bakı: 1967
2. El Çələngi. Bakı: Gənclik, 1983
3. Əlizadə Ə. Bayramov Ə. Psixologiya. Bakı: 1998
4. Əfəndiyev P. Azərbaycan Şifahi xalq ədəbiyyatı. Bakı: 1981
5. Zeynallı H. Azərbaycan tapmacaları. Bakı: 1928
6. Haqverdiyev Ə. Seçilmiş əsərləri, II cild. Bakı: 1957
7. Kişinov Ə. Pedoqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı: 1991

***Mingəçevir Dövlət Universiteti***
***Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim***
***E-mail: rahile.mamedova1959@mail.ru***

**Rahila Mammadova**

## ORAL FOLK CREATIVITY CREATED BY THE PEOPLE OF AZERBAIJAN

Through the examples of folklore, the people have expressed their wishes and desires related to their daily life, future ideas, and therefore, through the examples of folk artistic creativity, it is possible to study the way of life of the people, and at the same time, their psychology. In terms of studying folk psychology, some important theories have emerged in folklore studies. Mythological theory is one of these theories. The representatives of the mythological school showed religion as a driving force for artistic creativity, in their opinion, folklore develops independently of human will like a leaf on a tree, and man is the creator and preserver of folklore.

Scientists of the anthropological theory have come to the conclusion that there is a similarity between the folklore patterns of the peoples of the world, and this similarity is related to the mental, spiritual and spiritual identity of the ancient peoples. From this, it can be concluded that it is possible to study human psychology and individual psychological characteristics of people with their different aspects on the basis of similarities in folklore examples.

**Keywords:** *folklore, folk psychology, theory, culture, legend, folk game*

**Рахила Мамедова**

## УСТНОЕ НАРОДНОЕ ТВОРЧЕСТВО, СОЗДАННОЕ АЗЕРБАЙДЖАНСКИМ НАРОДОМ

Через примеры фольклора народ выразил свои пожелания и стремления, связанные с его повседневной жизнью, будущими идеями, поэтому на примерах народного художественного творчества можно изучить быт народа, а также на примере народного художественного творчества. в то же время их психология. С точки зрения изучения народной психологии в фольклористике появилось несколько важных теорий. Мифологическая теория является одной из таких теорий. Представители мифологической школы показали религию как движущую

силу художественного творчества, по их мнению, фольклор развивается независимо от воли человека, как лист на дереве, а человек является творцом и хранителем фольклора.

Ученые антропологической теории пришли к выводу, что между фольклорными образцами народов мира существует сходство, и это сходство связано с ментальным, духовным и духовным своеобразием древних народов. Отсюда можно сделать вывод, что на основе сходства фольклорных примеров можно изучать психологию человека и индивидуально-психологические особенности людей с разных их сторон.

**Ключевые слова**: *фольклор, народная психология, теория, культура, легенда, народная игра.*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.01.2025**
**Son daxilolma tarixi:11.02.2025**